Tədqiqatda iştirak üçün məlumatlandırılmış razılıq forması

Bu forma yazılı məlumatlandırılmış razılıq üçün nümunədir.

Yetkinlik yaşına çatmayanların iştirak etdiyi bütün layihələrdə valideynin yazılı icazəsi tələb olunur.

Tədqiqatçı şagird(lər) üçün təlimat: Razılıq və icazə forması elmi rəhbər, birbaşa nəzarətçi (direct supervisor) və ya mütəxəssis alimlə məsləhətləşərək hazırlanmalıdır.

Bu forma iştirakçını (və ya valideynini/qəyyumunu) tədqiqat barədə məlumatlandırmaq, onun məlumatlandırılmış razılığını, yetkinlik yaşına çatmayan iştirakçının razılığını və ya valideynin icazəsini yazılı şəkildə sənədləşdirmək üçün istifadə olunur.

- Yazılı razılıq tələb olunduqda, imzalanmış formanın əsli tədqiqatçıda saxlanılır.
- Şagirdlər bu nümunədən istifadə edə və ya onun BÜTÜN hissələrini yeni sənədə köçürə bilərlər.

Forma valideyn icazəsini sənədləşdirmək üçün istifadə olunursa, tətbiq ediləcək bütün sorğu və anketlərin surəti ona əlavə edilməlidir.

Tədqiqatçı şagird(lər): _____

Layihənin adı: _____

Sizi elmi müsabiqə üçün hazırladığım layihədə könüllü iştirak etməyə dəvət edirəm. Layihə haqqında aşağıdakı məlumatları oxuyun. İştirak etmək istəyirsinizsə, formanın sonunda müvafiq bölməni imzalayın.

Layihənin məqsədi:

İştirak etsəniz, sizdən bunları etməyiniz istəniləcək:

İştirak üçün tələb olunan vaxt:

Mümkün risklər (varsa):

Mümkün faydalar (varsa):

Məxfilik necə qorunacaq:

Tədqiqatla bağlı suallarınız varsa, aşağıdakı şəxslə əlaqə saxlaya bilərsiniz:

Layihə rəhbəri / mütəxəssis alim / elmi rəhbər: _____ Telefon _____ elektron poçt

Könüllü iştirak

Bu tədqiqatda iştirak tamamilə könüllüdür. İştirak etmək istəməsəniz, bu hal sizin üçün heç bir mənfi nəticə yaratmayacaq. İştirak etməyə razı olsanız belə, istənilən vaxt tədqiqatdan ayrıla və istənilən suala cavab verməkdən imtina edə bilərsiniz.

Bu formanı imzalamaqla yuxarıdakı məlumatları oxuduğumu və başa düşdüyümü təsdiqləyirəm. Tədqiqatda iştirakıma könüllü razılıq verirəm və ya övladımın iştirakına icazə verirəm.

Yetkin iştirakçının və ya yetkinlik yaşına çatmayan iştirakçının razılığı

Tanış olma və imzalama tarixi: _____ (ay/gün/il)

İştirakçının adı, soyadı _____ İmza _____

Valideynin / qəyyumun icazəsi (tələb olunursa)

Tanış olma və imzalama tarixi: _____ (ay/gün/il)

Valideynin / qəyyumun adı, soyadı _____ İmza _____